**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# “AZƏRBAYCAN TƏHSİL VƏ PEDAQOJİ FİKİR TARİXİ”



## RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSI

**Akademik Hüseyn Əhmədovun anadan olmasının 100 illiyinə həsr olunur.**

***İştirakçı qurumlar: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Naxçıvan Dövlət Universiteti, Qərbi Azərbaycan İcması, Rusiya Təhsil Akademiyası, Qazaxıstan Pedaqoji Elmlər Akademiyası, Səmərqənd Dövlət Sosial-Pedaqoji Universiteti.***

**TARİX: 22 sentyabr 2026-cı il |**

**MƏKAN: ADPU-nun Sahil korpusu (Ü. Hacıbəyov, 68)**

KONFRANSIN BÖLMƏLƏRİ:

**I bölmə.** Akademik Hüseyn Əhmədovun həyat yolu, elmi-pedaqoji fəaliyyəti və elmi irsi
**II bölmə.** Azərbaycan təhsil və pedaqoji fikir tarixinin tədqiqinin nəzəri və metodoloji aspektləri
**III bölmə.** Təhsil sahəsində aparılan elmi tədqiqatların əsas istiqamətləri
**IV bölmə.** Tərbiyə problemləri üzrə aparılan elmi tədqiqatlar
**V bölmə.** Təhsilin idarə olunması və menecment sahəsində aparılan elmi tədqiqatlar

MÜHÜM MƏLUMATLAR:

Məqalələrin son göndərilmə tarixi: 10 iyul 2026-cı il

**Müraciət və materiallar üçün:**
info@ahmadoff.net
012 493 82 71

**Konfrans materiallarının tərtibatına dair tələblər:**

Materiallar konfransın elmi istiqamətlərinə uyğun olaraq tərtib edilməlidir. Microsoft Office Word proqramında A4 formatda, Times New Roman 12 şriftində (qara rəngdə), 1,5 intervalda yığılmalı, vərəqin sol kənarından 2,5 sm, sağdan 1,5 sm, yuxarıdan 3,0 sm, aşağıdan 2,5 sm boş sahə buraxılmalı, abzaslar 1,5 sm parametrlərinə uyğun olaraq yazılmalıdır.

Vərəqin baş tərəfində sağda müəllif(lər)in adı, atasının adı, soyadı (tam açıq şəkildə); elmi dərəcəsi, elmi adı; işlədiyi və təhsil aldığı elmi müəssisənin adı, müəllif(lər)in elektron poçt ünvanı (e-mail) yazılmalıdır.

Konfrans materialının (məqalə və ya tezislərin) mətni 3000 işarədən az olmamalıdır; mərkəzdə konfrans materialının adı 12 şriftlə, qara hərflərlə yazılmalıdır.

Xülasə: 80 sözdən az olmamalıdır, açar sözlər minimum 5 söz (azərbaycan və ingilis dillərində) olmalıdır. Hər bir xülasədə məqalənin adı və müəllif(lər)in tam adı göstərilməlidir.

Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun göstərilməlidir (istinad olunan ədəbiyyatın nömrəsi mətnin içərisində göstərilir: məsələn, [3, s.48-57], [2]).

Konfrans materialları jurnal formasında ADPU-nun rəsmi saytında yerləşdiriləcək, eləcə də çap formatında nəşr olunacaq. Materialların çapı ödənişsizdir.

Məqalənin (tezislərin) konfrans materiallarına daxil edilməsi müvafiq bölmələr tərəfindən müəyyənləşdiriləcəkdir. Materiallar antiplagiat proqramında yoxlanılacaqdır.

Zərurət yarandıqda Təşkilat Komitəsinin irad və qeydləri əsasında məqalənin (tezislərin) yenidən göndərilməsi istəniləcəkdir. İrad və qeydlər qəbul edilmədikdə və düzəliş edilərək vaxtında göndərilmədikdə məqalə (tezislər) konfrans materiallarına daxil edilməyəcəkdir.